Ədəbiyyat qəzeti

**Səfəvi-Qızılbaş təfəkkür paradiqmasının, İrfan düşüncə tərzinin də Azərbaycanda təbliğ və təşfiqi üçün məhz bizim öz yolumuz, öz vasitələrimiz olmalıdır.**



# “Qızılbaş metafizikası,

## Mövzuya yanaşma tərzinin müəyyənləşdirilməsi

İlqar Fəhmi

*Kitabdan fraqmentlər*

*2-ci hissə*

* * *

### *Yazılanlar, deyilənlər*

Səfəviliyin metafizik qatları haqqında xeyli sayda məqalələr, araşdırmalar işıq üzü görüb, ancaq bunların çoxu ölkəmizin hüdudlarından kənarda aparılıb. Bu sahədə ən çox fəallığı ilə seçilən Anadolu ələviləri və cəfəriləri olub. Bu materiallardan əlimizə düşəni diqqətlə gözdən keçirəndə, çox təqdirəlayiq bir mənzərə müşahidə edirik - sanki hər kəsin özünün içində bir Şah İsmayıl kultu var. Dini müqəddəslərdən sonra real kamil insan obrazı onlar üçün Şah İsmayıl obrazında cəmləşib.

Kimin üçünsə O, Şah İsmayıldır, kiminçünsə Şah Xətaidir, kiminçünsə Şeyx oğlu Şahdır və sair və ilaxır... Sanki hər düşünən insan, hər təfəkkür sahibi öz içində öz Şah İsmayılını yaradıb, kamil insan obrazına aparan öz fərdi mistik kəşf yolunu tapıb.

**Haşiyə:** Yadımdadır ki, ötən əsrin doxsanıncı illərinin ortalarında əslən təbrizli olan şair, araşdırmaçı və musiqiçi Cavid Mürtəzaoğlunun rəhbərliyi ilə Bakıdakı Səttarxan zavodunun Mədəniyyət sarayında "Şah Xətai Ürfan məclisi" yaradılmışdı ki, burada çoxsaylı maraqlı tədbirlər həyata keçirilirdi. Lakin sonradan mənə məlum olmayan səbəblərdən bu məclisin fəaliyyəti dayandı, Cavid Mürtəzaoğlu isə Türkiyəyə köçdü. Hal-hazırda Anadoluda pedaqoji fəaliyyətlə məşğuldu və Qızılbaşlığın fəlsəfəsi barədə çoxsaylı məqalələrin, kitabların müəllifi kimi tanınır, sevilir.

Əlbəttə, bu təzahürdə tarixi şəraitin də rolu böyükdür. Onlar bizim xalqın qarşılaşdığı iki yüz illik psixoloji preslənmədən keçməyiblər - mifləri əllərindən alınmayıb, övliyaları gözdən salınmayıb. Düzdü, Türkiyənin rəsmi ortodoksal dini dünyagörüşünə uyğun gəlmədiyinə görə ələvilər tarix boyu müəyyən qədər təzyiqlərə məruz qalıblar, lakin bu təzyiqlər bizim xalqın mənəviyyatının başına gətirilənlərlə müqayisə olunacaq dərəcədə azdır. Əgər çox olsaydı, onlar da öz metafizikalarından məhrum olardılar...

Əlbəttə, mən ələvi əqidəsinin bütün atributlarını təkrar eləməyin, imitasiya olunmağının və onların əsərlərinin burda çox da təbliğinin tərəfdarı deyiləm. Zənnimcə, reaksiyası da yetərincə olmaz. Çünki o əsərlər öz metafizikasını əsrlər boyu qoruyub saxlamış bir topluma ünvanlanıb. Bizim xalq isə əfsuslar olsun ki, məcburi şəkildə öz milli metafizik enerji bazasından uzaq salınıb. Buna görə də, onlarçün adi gələn mətləblər, fikirlər bizim geniş toplum üçün anlaşılmaz olar.

Səfəvi-Qızılbaş təfəkkür paradiqmasının, İrfan düşüncə tərzinin də Azərbaycanda təbliğ və təşfiqi üçün məhz bizim öz yolumuz, öz vasitələrimiz olmalıdır. Məhz bu işdə kor-koranə imitasiya heç bir effekt verməz...

### *Kodlar, şifrələr...*

Son onilliklərdə həm dünyada, həm də bizdə müxtəlif təbəqəli düşüncə adamları tərəfindən qədim mətnlərin şifrələnməsi, kodlaşdırılması barədə fikirlər eşidirik. Əlxüsus Şərqdə istər dini kitablar, istər "Dədə Qorqud", "Koroğlu" və sair bu cür qədim dastanlar, istər "Fütuhati-məkkiyə", "Təzkirətül Övliya", "Cavidannamə", "Şeyx Səfi təzkirəsi" kimi klassik İrfan mətnləri, istərsə də klassik poeziya nümunələri - şifrələnmiş, kodlaşdırılmış mətnlər kimi təqdim olunur ki, bu kodların açılacağı təqdirdə az qala İlahi qəza-qədərin, varlığın, kainatın bütün sirləri bizimçün açılmış olacaq...

Bu xüsusda çoxsaylı elmi məqalələr, kitablar yazılır, araşdırmalar aparılır, hətta bu düşüncə tərzi dünya miqyasında kütləvi ədəbiyyat müstəvisinə də keçərək "Da Vinçi kodu" kimi bestsellerlərin yaranmasına gətirib çıxardıb.

Ancaq əfsuslar olsun ki, hələ də bu "ilahi sirrlər"dən açılıb ortaya qoyulanı *yoxdur*. Və yaxud ortaya qoyulan fikirlər elə acaib və qarışıq olur ki, toplum tərəfindən o qədər də qəbul olunmur. (Eynən xalq yazıçısı İsa Muğannanın əsərləri kimi.)

Bəs sual oluna bilər, niyə? Əgər konkret kriptoqrafiya sahəsindən söhbət gedirsə, burda gərək ki, heç bir probolem olmasın. Amma problemlər var. Çünki məsələ fizika yox, metafizika sahəsindən gedir. Metafizikada rəqəm yoxdur. Fizika isə rəqəmlər dünyasıdır...

**Haşiyə:** Yaxın Şərqin klassik dini mətnlərinin şifrələnməsi, kodlaşdırılması məsələsiylə min illərdir ki, Kabbalistika elmi məşğul olur. Əsas məqsəd də Tövratın alt qatındakı gizli sirləri, şifrələnmiş həqiqətləri açmaqdır. Şərq islam təfəkküründə oxşar fəaliyyəti batinilərdə və hürufilərdə müşahidə etmək olar.

İndi isə yenə öz problemlərimizin üstünə qayıdaq. Görəsən biz də öz klassik mətnlərimizə kabbalistlər kimi yanaşa bilərikmi? Tutalım, bəyan edilir ki, bizim milli-dini təfəkkürün inkişafı İrfan düşüncə tərzinin, Səfəvi-Qızılbaş təfəkkürünün gizli kodlarının açılması, batini şifrələrinin oxunması ilə bağlıdır. Əgər bunu bacarsaq, deməli birdən-birə istədiyimizə nail olarıq...

Kənardan elə görünə bilər ki, bizim qarşımızda sirlərlə dolu hansısa şifrələnmiş mətnlər var və biz açar sözləri tapa bilsək, bircə anın içində bütün sirlərin üstündən pərdə götürüləcək, bizim hamımız *hər şeyi biləcəyik*...

Təbii ki, özünü ağıllı göstərmək istəyən psevdoaqil tipinə mənsub insanlar üçün bütün bu məsələlər nə qədər maraqlı görünürsə, ciddi adamlarda bu cür yanaşma yalnız yüngül təbəssüm doğura bilər.

Sual oluna bilər, bəs Şərq İrfan simvolikası nədir? Elə Səfəvi şeyxlərinin yazılarındakı, yaxud Şah İsmayıl Xətai poeziyasındakı təbirlər və rəmzlər nədir? Bunlar da sadəcə illüziyadır? Bəs belədirsə, niyə klassik ədəbiyyatla məşğul olanlar hər kəlməbaşı İrfan rəmzlərindən, gizli, batini həqiqətlərdən danışırlar? Bütün bunlar da boş mənasız illüziyalardır?

Əlbəttə ki, yox... Problem yenə də fizika və metafizikanın qarışdırılmağında, yaxud metafizika sahəsinə fizika qanunlarıyla daxil olmağın yanlış addım olduğundadır və bu yanaşma əfsuslar olsun ki, daha çox ədəbiyyat və kino sahəsində yayılıb...

Hollivudun mistik filmlərinə diqqət edək: tutalım bir qəhrəman qarşısına çıxan düşmənlərini polad qılıncla öldürür, daha sonra isə mistik aləmə daxil olur və qılıncını kənara ataraq cibindən hansısa duaları, tilsimləri çıxardır, ruhlardan və kabuslardan bu tilsimlər, dualar, mistik işarələr yazılan artefaktlar vasitəsiylə müdafiə olunur...

Burda qeyri-adi nə var ki, deyə bilərsiz? Hər şey dəqiqdir. Fiziki insanla polad qılıncla döyüşür, ruhlar və kabuslarla isə tilsim və dualar vasitəsiylə...

Necə ki, fiziki-maddi dünyada istənilən adam silahı götürüb fiziki-maddi varlıqlara qarşı istifadə edə bilər, eynən də metafizik aləmdə istənilən şəxs eyni vasitələrlə eyni nəticəyə nail ola bilər...

Diqqət edək. İstənilən şəxs ifadəsini işlətdim...

Bütün yanlışlıqların səbəbi məhz bu məqamdadır.

Metafizik-mistik müstəvidə *istənilən şəxs* ifadəsi yoxdur. Xeyli sayda adam teatra gedib eyni tamaşanı eyni cür görə bilər, amma xeyli sayda adam eyni yuxunu eyni cür görə bilməz. Xeyli sayda adam eyni fiziki-maddi hadisəni müşahidə edə bilər, amma eyni təəssüratı alıb eyni hissləri yaşaya bilməz. Burada eyniyyət itir.

Şərq İrfan təfəkküründə hamıya məşhur olan dörd mərhələni xatırlayaq. Şəriət, təriqət, mərifət, həqiqət...

Şəriətdə eyniyyət var. Bəyan edilən əməllər, ehkamlar hamı üçündür.

Təriqət isə "yol" deməkdir. Yol isə fərdidir, hər kəsin özünün spesefik yolu var. Burada məcburiyyət və kütləvilik yoxdur. Yalnız pir, mürşid var ki, o da, sadəcə müridin daxili mənəvi işıqlanma istiqamətində yol göstərən, yaxud yoluna işıq salan mayak rolunu oynayır, salikə öz yolunu, təkrar edirəm, öz fərdi işıqlanma yolunu tapmaqda kömək edir ki, nəhayətdə mərifət kəsb edərək həqiqətə çatsın...

Yollar isə minlərlədir. Məşhur təriqət tezisində deyildiyi kimi,

**Hər şey dəqiqdir. Fiziki insanla polad qılıncla döyüşür, ruhlar və kabuslarla isə tilsim və dualar vasitəsiylə...**

"Dünyada elə bir insan yoxdu ki, onun özünün Allaha aparan yolu olmamış olsun."

Yaxud başqa bir kəlam: "Allaha aparan yollar insanların sayı qədər çoxdur."

Əbəs deyil ki, klassik Şərq-İrfan poeziyasının müasir şərhçiləri arasında mübahisələr çoxdur, çünki eyni poetik simvolun, bədii rəmzin müxtəlif təriqət sahibləri tərəfindən müxtəlif açıqlamaları ortaya qoyulub. Şərhçilərdən də hər biri öz istinad mənbəyini mütləq həqiqi hesab edərək, o biriləri yanlışlıqda suçlayır. Əslində isə hər biri haqlıdır. Şəriətdən fərqli olaraq təriqətdə, irfanda iki nöqtə arasında bir yox, *yüzlərlə*, minlərlə düz xətt ola bilər. Fizika-maddi dünya baxımından nə qədər absurd görünsə də, metafizik müstəvidə həqiqət məhz bu cürdür.

Yenə də şifrələnməyə qayıdaq. Bəli, Şərq təfəkkür tərzində də, spesefik batini rümuzat, işarələr, simvolika var. Lakin bu simvolikanı, işarələri hər salik öz fərdi yolu ilə və sırf özü üçün açmalıdır. Hamıya açıq-aydın olan və hamının başa düşüb istifadə edə biləcəyi şifrələr və kodlar *yoxdur, ola da bilməz*.

(Elə diqqətlə baxsaq, müasir dövrümüzdə bunun nümunəsini görmürükmü? Tutalım, həkim-terapevt eyni xəstəliyi olan insanlara təqribən eyni dərmanları, eyni müalicələri yazır. Lakin psixoloq eyni psixoloji gərginlikdə olan insanları tam fərqli, spesifik üsullarla sakitləşdirməyə çalışır.)

Səfəvi-Qızılbaş təfəkkürü təriqət müstəvisində təzahür edən hadisədir. Deməli, bütün təbliğat yalnız mürşidlərin yanaşma tərzi üstündə qurulmalıdır. Yəni, təbliğatçı özünün fikir və düşüncələrini obyekto hansısa üsulla təlqin eləməməlidir, ancaq obyektin özünün fərdi fikir və düşüncələrinin yaranmasına yardımçı olmalıdır. Hətta bu fikir və düşüncələr təbliğatçının öz yanaşmasıyla uyğun gəlməsə də...

İrşadın əsl mahiyyəti; təriqətdə mürid-mürşid münasibətləri ilə, şəriətdə müctəhid-müqəllid münasibətlərinin fərqi də məhz bu zaman meydana çıxır. Əsl mürşid müctəhiddən fərqli olaraq qəti əməl hökmü vermir, sadəcə istiqamətləndirir.

Başqa sözlə desək, biz sevirik, və sevdirməyə çalışacağıq. Eşq meydanında isə ehkama qəti yer yoxdur.

### Yenə də metafizika barədə

"Niyə?" Bəli, bütün bu dediklərimizin müqabilində, bir çoxları yəqin ki, belə bir sualı ortaya qoya bilər. "Axı niyə?"

Bütün bu cəhdlər nəyə gərəkdi? Müasir dövrümüzdə elm-texnika sürətlə inkişaf edir, bütün dünyanın gedişatı dəqiq elmlərin üzərində qurulub, belə demək olarsa, dünya fizika dünyasıdır, bizim də bir xalq olaraq borcumuz sürətlə maariflənmək, rasional elm sahibi olmaq, dünyanın bu fiziki-maddi inkişafıyla ayaqlaşmaq, geriliyimizi aradan qaldırmaq, dünyada öz yerimizi təsdiq etmək üçün mübarizə aparmaqdır. Belə gərgin mübarizə şəraitində xalqımızın irrasional mifik-mistik keçmişində qurdalanmaq, kollektiv təhtəlşüurun altqatına düşmək çabalarında bulunmaq isə, bizi yenidən metafizikanın cəhalət bataqlığına salmağa, rasional elmi-texniki inkişafdan saxlamağa xidmət edir və buna görə də əhəmiyyətsiz, hətta ziyanlı hesab olunmalıdır.

...Qəribə də görünsə, tamamilə razıyam.

Paradoks? Olsun. Amma əslində heç bir ziddiyyət yoxdur. Məsələ yenə də ehkam və azadlıq; mütləqlik və şərtilik; vəhdət və kəsrət, rasional və irrasional məfhumların arasındakı ziddiyyətlərin üstü-

# Səfəvi mistikası”

nə gəlib çıxır.

Bu ziddiyyətlər isə yalnız fizik-maddi aləm adlandırdığımız müstəvinin məhsuludur. Yuxarıda qeyd etdiyimiz kimi, yalnız maddi aləmdə iki nöqtə arasında bir düz xətt olur. Maddi aləmdən kənarda isə, yüzlərlə xətt ola bilər, hər biri də düz, hər biri də səlis. Və buna təəccüblənməyə dəyməz. Bir elektronun eyni vaxtda iki yerdə olmasının mümkünlüyü kimi...

Metafizika ilə fizikanın sərhədlərindən danışarkən kvant mexanikası sahəsində son onilliklərdəki elmi kəşflərə və onların mahiyyətinə toxunmamaq mümkün deyil.

Lakin əvvəlcə bir sosial hadisəyə diqqət çəkmək istəyirəm. Müvəqqəti olaraq, Səfəvi-Qızılbaş mövzusunu kənara qoyub, üzümüzü Qərb ölkələrinə tutaq.

Budur, ötən əsrin son onilliklərindən başlayaraq, Qərbin elmi-texniki inkişaf mexanizminin müxtəlif halqalarında Şərqdən gedən mütəxəssislərin sayı sürətlə artmaqdadır. Misalçün, ABŞ-ın mürəkkəb kompüter texnologiyaları sahəsində hindistanlıların, tibb və kimya sahəsində türklərin, fizika və astronomiya sahəsində iranlıların getdikcə çoxalan faizini gizlətmək mümkün deyil. NASA-nın astrofiziklərinin az qala böyük hissəsini əslən İranlı alimlər təşkil edir. (Siyahını uzadaraq bura ərəbləri, çinliləri, afrikalıları da daxil etmək olar.)

Dünyanın bütün bölgələrindən, ələlxüsus siyasi cəhətdən qeyri-stabil regionlarından ağıllı, enerjili, bacarıqlı gənclər Qərbin ali təhsil müəssisələrinə cəlb olunur, ixtisas dərəcələri artırılır və əksər hallarda vətənə dönməyərək, elə ordaca qalıb fəaliyyətini davam etdirir.

Əlbəttə ki, burda da qeyri-adi bir şey yoxdur, deyənlər ola bilər. Budur, Qərb demokratiyası dünyanın hər yerindəki düşüncə adamlarına sahib durur, hətta öz ölkələrində qədr-qiymətini almayan, diqqətdən kənarda qalan alimləri dəvət edib şərait yaradır, iş verir- hətta öz köklü vətəndaşları arasında işsizliyin sayı artsa belə...

Budur, demokratiyanın, humanizmin, insanpərvərliyin təntənəsi...

Razıyam, ilk baxışdan bu cür görünəni budur. Lakin yalnız ilk baxışdan...

Başqalarını bilmirəm, şəxsən mən Qərbin nə demokratiyasına, nə də humanizminə inanmıram.

Bəli, onların şərqlilərdən əvvəl də zəhləsi gedib, indi də... Bəs onda yuxarıda yazdığım hadisə niyə təzahür edir? Niyə Qərbin elmi-texniki inkişafın hər halqasında yüzlərlə şərqli mütəxəssis, alim çalışır?

Bəli, çalışırlar, çünki onlara ehtiyac var.

Ehtiyac varsa, deməli Qərb cəmiyyəti öz tələbatını ödəyəcək sayda keyfiyyətli mütəxəssislər yetişdirə bilmir. Həqiqət budur.

Əgər öz mütəxəssisləri öz inkişaflarının ehtiyaclarını ödəyə bilsəydi, şərqliləri heç qapının kandarından da içəri buraxmazdılar. Necə ki, yüz il əvvəl buraxmırdılar.

Yaxşı, bəs onda niyə yetişdirə bilmir? Yoxsa Qərbin təhsil sistemi korlanıb, düzgün işləmir? Yox, işləyir, axı orda çalışan şərqlilərin demək olar ki, hamısı elə Qərbdə ali təhsil alıb elm öyrənən mütəxəssislərdir...

Zənnimcə, bayaqdan uzatdığım sual-cavab silsiləsinin ən əhəmiyyətli məqamına çatmışıq.

Bəli, Qərb təhsil müəssisələri, akademik dairələri elmi-texniki inkişafın ən ali səviyyəsində çalışan yerli mütəxəssislər yetişdirməyə çətinlik çəkir, çünki onlar artıq üç yüz ildir ki, öz metafizik-irassional təfəkkür paradiqmalarını kərpic-kərpic dağıtmaqla məşğuldurlar. Dəqiq elmlərin inkişafına da məhz bunun hesabına nail olublar. Hər şeyə yalnız empirik-rasional baxış bucağından baxmaq, bütün diqqəti yalnız fiziki qanunların üzərində cəmləmək.

Lakin son onilliklərdə dəqiq rasional elmlər o qədər inkişaf edib ki, artıq rasionallıq çərçivəsindən çıxıb irrasional dumanlığa daxil olublar... Ələlxüsus fizika bu saat daha çox metafizik labirintlərdə azıb qalmış kimi görünür... Və bu sahələrdəki fəaliyyəti davam etdirməkçün öz irrasional metafizik təfəkküründən tam məhrum olmayan insanlara ehtiyac var. Eynən şərqlilər kimi...

İnandırıcı deyil? Rasional elm hara, irrasional dumanlıq hara? Dəqiq elmlərin şahı olan fizika hara, qarışıq xaotik sahə olan metafizika hara?

## Bir az da Kvant fizikası barədə

Elementar zərrəciklər fizikasıyla səthi də olsa maraqlanmayan insan, fəlsəfə ilə məşğul ola bilməz. Çünki tarix boyu fəlsəfənin ən əhəmiyyətli suallarından biri ilkin maddə - zərrə, cövhər, həyulla - kainatın ən kiçik yaradıcı kərpici - barədə fikir və düşüncələr olub. Elə "Atom" sözünün yaranmasına görə də, filosoflara borcluyuq...

Yüzillər boyu fizika elmi mexanikanın dəqiq rasional məntiqi qanunlarını kəşf edib üzə çıxardıb, daha doğrusu, mexanikanın bütün təzahürləri vahid fiziki qanunlar çərçivəsində öyrənilib. Bundan kənar nə varsa, yalan, cəhalət, nadanlıq elan edilib. Metafizika sahəsi də, lazımsız, mənasız bir sahə hesab olunub.

Lakin ötən əsrin birinci yarısından başlayaraq, gün-gündən təkmilləşən mikroskoplarla silahlanan fizika alimləri artıq elementar zərrəciklər aləminə baş vurdular. Məlum oldu ki, burada baş verən prosseslər mexanika qanunlarına qəti şəkildə uyğun deyil və heç bir rasional məntiqlə izah oluna bilməz... Beləliklə, fizikanın əski rasional, empirik qanunlarıyla ziddiyyət təşkil edən Kvant fizikası yarandı.

Fikirlərimizin məncə, ən qarışıq yerinə gəlib çatdıq.

Yüzillər boyu Qərbdə rasionallıq irrasionallığı, məntiq fövqəlməntiqi, fizika metafizikanı tikə-tikə yeməklə məşğul idi ki, bunun nəticəsində 20-ci əsrin başlanğıcında pozitivist, praqmatik fəlsəfə öz istilasının pik nöqtəsinə çatdı.

Amma irrasionallığın, metafizikanın tam təslim olmuş kimi göründüyü bir məqamda, kvant fizikası ortaya çıxdı. Budur, akademik elmi dairələrdə qəribə nəzəriyyələr eşidilməyə başladı -yüzillər boyu maddənin zaman və məkan müstəvisində dəyişməz yerə sahib olduğun bəyan edən fiziklər, "elektronlar eyni vaxtda iki yerdə ola bilər"; "elektronlar həm maddə, həm də dalğa təbiətinə malik ola bilər"; yaxud, "biz öz diqqətimizlə elementar zərrəciklərin fəaliyyətini istiqamətləndirə bilirik " kimi çoxsaylı qəribə, qeyri-məntiqi tezislərlə üz-üzə qalmış oldu...

Bu nəzəriyyələri gülüş obyektinə çevirən bəzi alimləri anlamaq mümkündür. Hətta uzun illər Nils Borla bu xüsusda elmi mübahisələr aparan Albert Eynşteyn də ömrünün sonuna qədər etiraf edirdi ki, Kvant fizikasını anlamaqda çətinlik çəkir. İlk dəfə idi ki, empirizmlə rassionalizm bir-birinə zidd görünürdü. Dəfələrlə sınaqdan keçirilən və empirik baxımdan təsdiqlənən qanunauyğunluqları, təzahürləri heç bir rasional məntiqlə izah etmək mümkün olmurdu. Ortaya qoyulan müxtəlif, təzadlı elmi nəzəriyyələr isə heç də hamı tərəfindən qavranılmırdı.

Şəxsən mənim üçün Kvant fizikasının yarandığı gün rasional, məntiqi təfəkkür öz məğlubiyyətini etiraf etməliydi. Fizikanın öz bətnində metafizika tapılmışdı.

"Fiziklərin hamısı axırda havalanır, psixi xəstə olur" - bu ifadəni müxtəlif formalarda bir çoxumuz eşitmişik. Və görəsən özümüzə sual verməmişikmi ki, niyə kimyaçılar yox, astronomlar yox, bioloqlar yox, məhz fiziklər? Axı niyə məhz fiziklər sonda havalanmalıdır, beyinləri pozulmalıdır?

Ona görə ki, elmi təhsilin əvvəlində aldıqları informasiya ilə, sonra aldıqları informasiya arasında ziddiyyət yaranmışdı. Rasional məntiqi təfəkkürə sahib olan insanlar isə dəqiq elmlərdə ziddiyyəti heç cür qəbul edə bilmirlər. Onlar hər şeyi aydınlaşdırmağa, məntiqlə anlamağa çalışırlar. Lakin Kvant mexanikasının heç bir pstulatını rasional məntiqlə anlamaq mümkün deyil. Belə çıxır ki, mexanikadan fərqli olaraq, Kvant fizikasıyla məşğul olan alim empirik təcrübələr vasitəsiylə hansısa nəticələr əldə edir, bu nəticələrin sayəsində hansısa elmi-texniki vasitələr yaradılır, icad edilir, lakin bu təzahürün mahiyyətini heç bir fizik tam olaraq özü üçün izah edə bilmir... Bu ziddiyyət normal rasional insanın düşüncəsini pozmaya bilməz.



Belə ziddiyyətlər qarşısında qalan rasional məntiq insanının təfəkkürü buz bağlamış kimi donub qalır, daş dəyibmiş kimi çatlayıb tökülmək təhlükəsiylə üzləşir. Amma öz içində metafizik təfəkkürün elementlərini saxlayan insan üçünsə, belə təhlükə mövcud deyil...

Qəribə də olsa bir misal göstərəcəm. Hansısa məşhur bir övliyanın (tutalım, elə Şah İsmayılın) eyni vaxtda iki yerdə görünə bilməsi hadisəsinə ruhunun ən dərin qatlarında da olsa, azacıq inam saxlayan bir şərqli üçün bir elektronun eyni vaxtda iki yerdə mövcud olması faktı şüurunu partlatmağa qadir olan bir bomba deyil, adi bir həyat faktıdır...

Qeyd edək ki, son onilliklərin nano texnologiyaları, nüvə fizikası, kompyüter və elektronika sahələri elementar zərrəciklərin bu irrasional, qeyri-məntiqi mövcudluq faktlarının texnikada istifadəsi üzərində qurulub. Məhz bu istiqamətdə, şərqdən çıxan və metafizik təfəkkür tərzinin təsirindən tam qurtula bilməyən şərqli alimlərin xidməti böyükdür və getdikcə artmaqdadır.

(Elə bircə Lütfi-zadənin qeyri-səlis məntiq nəzəriyyəsinin müasir elektronikanın inkişafına verdiyi töhfələri yada salmaq kifayət edir.)

Deməli 21-ci əsrdə elmi-texniki sahənin ən yüksək təbəqələrində sırf rasional təfəkkür sahiblərindən daha çox, öz içində rasionallığı və irrassionallığı; fizika ilə metafizikanı birləşdirə bilən, ümumiyyətlə, bu iki istiqamət arasında sərhəd qoymayan təfəkkür tərzinə böyük ehtiyac var... hərdən mətbuatda eşitdiyimiz post-insan şüarını da mən bu keyfiyyətlərlə bağlayıram.

Məhz bu prizmadan baxanda, bizim ziyalıların həmişə sevə-sevə işlətdiyi "cəhalət", "nadanlıq", "geridəqalmışlıq" kimi məfhumlar bir qədər kənara sürüşərək öz sahiblərini dəyişmiş olur. Artıq elə dövrə çatmışıq ki, "cahil", "nadan" terminləri elmi-texniki inkişafın yalnız rasional-fiziki xətlə inkişaf edəcəyində israrlı olan, metafizikanı və irrasinallığı isə inkar edən düşüncə sahiblərinə şamil edilməlidir.

Dediklərimi əyani anlatmaq üçün yenə də qəribə bir nümunə gətirmək istəyirəm. Qarşımızda iki alim təsəvvür edək. Biri köklü qərbli, digəri isə əslən şərqlidir. Hər ikisi ən yüksək səviyyəli akademik təhsil alıb.

Qərbli yüzilliklər boyu bütün irrasionallığın, metafizikanın inkar edildiyi müasir Qərb cəmiyyətinin yetirməsi kimi, dünyanı yalnız ağılla, məntiqlə anlayır, anlamadığını da heç cür qəbul edə bilmir, dini-mistik düşüncənin cəhalətindən də azaddır.

Şərqli isə bütün müasir təhsil sistemindən keçsə də, təhtəlşüurunun dərinliklərində şərqli olaraq qalır, metafizik düşüncədən tam məhrum olmayıb. Aldığı dəqiq rasional məntiqli elmi məlumatlar onun içindəki metafizik duyğularla ziddiyyət təşkil etsə də, bunu adi hal kimi qəbul edir, heç bir psixoloji stress filan da yaşamır.

İndi də gəlin bu iki alimin Kvant fizikasıyla tanış olma məqamını təsəvvür edək.

Qərbli Kvant mexanikasının irrasionallığı ilə üz-üzə qalarkən, təfəkküründə qarşısıalınmaz gərginliklər yaranır, beyin enerjisi lazımsız düşüncələrə sərf olunur - axı necə ola bilər ki bir elektron eyni vaxtda iki yerdə görünə bilir, axı bu mümkün deyil; bunu hansı məntiqlə izah etmək olar; əgər məntiqlə izah etmək mümkün deyilsə, deməli belə hal da baş verə bilməz, inandırıcı deyil; amma bütün təcrübələr göstərir ki, bu, məhz belədir, elektron istəyəndə eyni vaxtda iki yerdə mövcud olur, istəyəndə dalğavari mahiyyət kəsb edir, istəyəndə maddə olur; olur, amma ola bilməz axı, mümkün deyil, bütün qanunlara ziddir...

Qərbli alim bu sonsuz fikirləri beynindən çıxara bilmir, rastlaşdığı faktları özü üçün rasional məntiqlə izah etməyə çalışır, heç nə alınmır, müxtəlif elmi nəzəriyyələrə müraciət edir, sxemlər çəkir, ən azından öz özünü qane edə biləcək elmi-nəzəri modellər qurmağa çalışır və bu işə külli miqdarda beyin enerjisi sərf edir... (və ola bilər ki, axırda havalanır)

İndi isə şərqliyə diqqət edək. Bəli, şərqli görür ki, bir elektron eyni vaxtda iki yerdə görünə bilir və bu fakt onun əvvəl aldığı akademik elmi təhsilin postulatlarıyla ziddir. Təbii ki bir qədər düşünür, daşınır, axırda təhtəlşüurundakı metafizik hissləri azadlığa buraxır, əl yellədərək fikirləşir ki, elektron istər eyni vaxtda iki yerdə görünsün, istər beş yerdə görünsün, Allah bilən məsləhətdi, o göydəki üçün mümkünsüz heç nə yoxdu...

Beləcə, şərqli alim beynini lazımsız düşüncələrlə yormur, enerjisini isə bu faktın real elmi-texniki sahədə necə tədbiq edilməsinə sərf edir.

Bu, ilk baxışdan ironik görünən pritça ilə əsas fikrimizin üstünə gəlib çıxırıq və təkrar edirik - müasir dünyada ən qabaqcıl akademik elmin artıq irrasional dumanlığa girdiyi bir məqamda; fizikanın metafizika qarşısında aciz qaldığı bir vaxtda, şərqlilərin Vəhdət (rasionallıqla irrasionallığın birləşdiyi məqam) üzərində qurulan təfəkkür tərzi - qərblilərin sırf rasional məntiqi təfəkküründən daha lazımlı, daha yararlıdır. Çünki sırf rasional məntiqi təfəkkür tərzi hal-hazırda elmin yeni inkişafı üçün buxova çevrilməkdədir.

(Əlbəttə, müasir dəqiq elmləri əhatə edən metafizika, irrasionallıq faktları barədə çox danışmaq, çoxlu sübutlar gətirmək olar, lakin bu, başqa söhbətin mövzusudur, bununla sırf alimlər məşğul olsalar, daha yaxşı olar.)

Məhz buna görə də gələcəkdə dünya xalqları arasında öz layiqli yerini tutmaq istəyən hər bir toplum sadəcə dünyəvi elm-təhsil səviyyəsini gücləndirməklə kifayətlənməli deyil, eyni zamanda öz metafizik-mistik bazasını da gücləndirməlidir.

Bizim metafizik-mistik bazamız isə yalnız və yalnız Səfəvi-Qızılbaş təfəkkür tərzidir... Çünki heç bir xalqa məxsus deyil, yalnız bizimdir.

*Ardı var*